

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 mart 2023-cü il №20 (2732) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# 44 günlük Vətən müharibəsi zamanı biz sübut etdik ki, Qarabağ Azərbaycandır və nida işarəsi

*Martın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfər edib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin Brandenburq "Willy Brandt" aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi rəsmi şəxslər qarşılayıblar.

* * *

Martın 13-də Berlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşü olub.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Görüşdə iqtisadi sahədə, o cümlədən sənaye, nəqliyyat, enerji, kənd təsərrüfatı, təhsil, texnologiyalar və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

* * *

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Dövlət başçıları birgə foto çəkdiriblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Almaniya Prezidenti **Frank-Valter Ştaynmayer** deyib:

\- Əziz həmkarım, cənab Prezident.

Bakıda bizim görüşlərimizi xatırlayıram. Mən səfər edəndə başqa vəzifədə idim. İndi zaman başqadır. Ətrafımızda çətinliklər vardır. Biz vəziyyəti təhlil etdik. İndi Rusiyanın Ukraynaya təcavüzündən bir il keçir. Bunun siyasi mühit, iqtisadi vəziyyət üçün nə kimi təsiri var? Bizim Azərbaycanla Ermənistan arasındakı münaqişə barədə danışmaq şansımız oldu. Hər ikimiz bunun uğura gətirib çıxaracağına həqiqətən ümid edirik. Bu, mürəkkəb bir münaqişədir. Ötən müddət ərzində irəliyə doğru bir neçə addım atılıb. Şarl Mişellə danışıqlar prosesi aparılıb.

* * *

Azərbaycan Prezidenti **İlham Əliyev** deyib:

\- Sağ olun, cənab Prezident. Almaniyaya yenidən səfər etdiyim üçün çox şadam. Sizinlə təkbətək görüşdə müzakirə etdiyimiz kimi, biz Azərbaycan və Ermənistan arasında münasibətlərin sülh yolu ilə həllinə töhfə vermək üçün əlimizdən gələni edəcəyik. Hesab edirəm ki, razılaşma əldə etmək üçün yaxşı şans var, xüsusən də ötən ilin oktyabrında Soçidəki görüşdən sonra Ermənistanın və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı bir zamanda. Bu sazişi gec-tez imzalamaq yaxşı fikirdir. Biz beynəlxalq hüquqa əsaslanan və bizim mövqeyimizə görə sülh sazişinin əsasını təşkil etməli olan beş prinsip işləyib hazırlamışıq.

* * *

Almaniya Prezidenti qeyd edib ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması ilə bağlı müzakirələr aparılıb və o, sülh müqaviləsinin imzalanacağına ümidvardır.

Frank-Valter Ştaynmayer Almaniyanın Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin apardığı missiyaya dəstək verdiyini qeyd edib, bu əsnada tezliklə Brüsseldə görüşün keçiriləcəyinə ümidvar olduğunu deyib. Almaniya Prezidenti əlavə edib ki, Şarl Mişelin missiyasına hər iki tərəfin etimadı var. O, həmçinin Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinkenin də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə ciddi dəstək və töhfə verdiyini bildirib.

Frank-Valter Ştaynmayer Almaniyanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanma prosesini, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin missiyasını, Brüssel sülh gündəliyini dəstəkləyir. Məhz bu əsnada aparılan görüşlərdə, qəbul edilən bəyanatlarda sülh müqaviləsinin və sülh gündəliyi platformasının müəyyən olunduğunu diqqətə çatdırıb.

Dövlətimizin başçısı qeyd edib ki, beş prinsipi özündə əhatə edən sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüs məhz Azərbaycan tərəfindən irəli sürülüb və iki ölkə arasında sülh müqaviləsi bu prinsiplər əsasında imzalana bilər. Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın mövqeyi iki yanaşmadan ibarətdir. Birinci yanaşma Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması, ikinci yanaşma isə Azərbaycanın Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsidir.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfindən müəyyən olunmuş nümayəndə martın 5-də Azərbaycanın Qarabağ bölgəsindən olan sakinlərlə görüşüb, Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən Qarabağın erməni ictimaiyyətinin nümayəndələri reinteqrasiya məsələləri və bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi üzrə təmasların davam etdirilməsi üçün Bakıya dəvət olunub.

Azərbaycan Prezidenti İlham Əliyev separatizmin bütün forma və təzahürlərinin qəbuledilməz olduğunu qeyd edib, separatist meyillərə münasibətdə vahid mövqeyin nümayiş etdirilməsinin vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanın Laçın yolu ilə bağlı məsələsinə toxunaraq bu yolun blokadada olması barədə Ermənistanın iddialarının tamamilə əsassız olduğunu bildirib, yol üzrə hərəkətin təmin edildiyini, dekabrın 12-dən etibarən Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə buradan 4 mindən artıq nəqliyyat vasitəsinin, 150-dən çox tibbi yardıma ehtiyacı olan şəxsin keçdiyini vurğulayıb.

Prezident İlham Əliyev Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğunun və Laçın yolundan hərbi məqsədlər, hərbi daşımalar üçün istifadənin Azərbaycan tərəfini narahat etdiyini bildirib.

Dövlətimizin başçısı üçtərəfli Bəyanata əsasən, Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirmədiyini deyib və Laçın yolunun son nöqtəsində, Azərbaycan və Ermənistan sərhədində Azərbaycanın müvafiq sərhəd-keçid məntəqəsinin yaradılması ilə bağlı təklifi barədə məlumat verib. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə region üçün yeni nəqliyyat dəhlizinin formalaşmasına imkan yaranacağını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın hazırda öz ərazisində dəmir yollarının və avtomobil yollarının qurulması üzrə işləri sürətli şəkildə davam etdirdiyini bildirib.

* * *

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək və geniş tərkibdə görüşü olub.

Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# 44 günlük Vətən müharibəsi zamanı biz sübut etdik ki, Qarabağ Azərbaycandır və nida işarəsi

(Əvvəli 1-ci səhifədə)

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts birgə mətbuat konfransı keçiriblər.

Əvvəlcə Almaniya Kansleri Olaf Şolts mətbuata bəyanatla çıxış edib.



**Kansler Olaf Şoltsun bəyanatı**

- Hörmətli xanımlar və cənablar.

Mən bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevi Berlində ürəkdən salamlayıram. Biz elə indicə ikitərəfli əməkdaşlığımızı necə dərinləşdirəcəyimiz haqqında gözəl fikir mübadiləsi apardıq. Biz ötən il ölkələrimiz arasında diplomatik münasibətlərimizin 30 illik yubileyini də qeyd etdik. Azərbaycan və Avropa İttifaqı Şərq Tərəfdaşlığı çərçivəsində daha da sıx əməkdaşlıq etmək istəyirlər. Bu, necə mümkündür və əsasən də ikitərəfli iqtisadi münasibətlərimizi nəzərə alaraq, həmçinin bu sualı da biz görüş çərçivəsində müzakirə etdik.



Azərbaycan həm Almaniya, həm Avropa İttifaqı üçün əhəmiyyəti artan tərəfdaşdır. Ölkənin həm Almaniyanın, həm də Avropa İttifaqının enerji təchizatı üçün böyük potensialı mövcuddur, Azərbaycan öz töhfəsini verə bilər və eyni zamanda, bərpaolunan enerji də bizim əməkdaşlığımızın bir mövzusudur.

Cənab Prezident Əliyev və mən Rusiyanın Ukraynaya hücumu haqqında da fikir mübadiləsi apardıq. Həmçinin bu hücumun, bu müharibənin Azərbaycana və Cənubi Qafqaza təsiri haqqında da fikir mübadiləsi apardıq. Mən öz mövqeyimizi açıq şəkildə ifadə etdim. Bizim fikrimizcə, Rusiyanın təcavüz müharibəsi beynəlxalq hüquqa açıq şəkildə ziddir. Rusiyanın bu işğalçı müharibəsi yeni bir epoxanın, belə deyək ki, başlanğıcını geosiyasi nöqteyi-nəzərdə işarələyir.

Bizim üçün vacibdir ki, Azərbaycan və Ermənistan arasında uzunmüddətli münaqişə artıq özünün sülh yolu ilə həllini tapsın. Açığını deyək ki, Almaniya Ermənistan-Azərbaycan sərhədində mövcud olan qeyri-sabit duruma görə bir az narahatdır. Təbii ki, burada gərginliyin artması təhlükəsi mövcuddur və son aylar, son həftələr baş verən hadisələr bunu göz qabağına gətirdi. Bizim arzumuz budur ki, bu münaqişə qısa bir zamanda, yerindəcə uzunmüddətli və qəbul olunan həllini tapsın. Burada sülh yolu ilə həll deyəndə təbii onu nəzərdə tuturuq ki, həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyü təmin olunsun. Eyni zamanda, hər iki ölkənin əhalisinin insan hüquqları və azadlıqları qorunmalıdır, beynəlxalq hüquqa uyğun olmalıdır. Almaniya burada, təbii ki, öz dəstəyini göstərməyə hazırdır. Bildiyiniz kimi, Avropa İttifaqının Ermənistanda mülki missiyası mövcuddur, Almaniya bu missiyanı dəstəkləyir və bu missiyanın rəhbəri Almaniya tərəfindən təmin edilib.

Cənab Əliyev və mən eyni fikirdəyik ki, bu münaqişə tez bir zamanda öz həllini tapmalıdır. Azərbaycan və Almaniya Avropa Şurasının üzvüdür. Biz həmin bu üzvlüklə üzərimizə öhdəlik götürmüşük ki, insanların hüquqları, demokratiya qorunsun, hüquqi dövlətçilik qorunsun. Biz belə düşünürük ki, demokratiyanın ayrılmaz bir hissəsi canlı mülki cəmiyyətdir. Çünki canlı mülki cəmiyyətdən hər bir cəmiyyət ancaq faydalana bilər.

Hörmətli xanımlar və cənablar, bu çətin dövrdə belə müsbət bir danışığın aparılmasından məmnunluq duydum. Biz cənab Prezidentlə belə qərara gəldik ki, sıx ələqədə qalaq və əməkdaşlığımızı davam etdirək. Cənab Prezident buyurun.

Sonra Azərbaycan Prezidenti mətbuata bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Təşəkkür edirəm, hörmətli cənab Kansler.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Kansler, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Səfər zamanı apardığımız danışıqlar bir daha onu göstərir ki, Almaniya-Azərbaycan əlaqələri yüksək səviyyədədir. Siyasi dialoq müntəzəm olaraq aparılır və əminəm ki, mənim səfərim bizim ikitərəfli münasibətlərimizə çox böyük töhfə verəcəkdir.

Siz qeyd etdiyiniz kimi, bir çox məsələlər bu gün müzakirə olundu, o cümlədən Avropa İttifaqı-Azərbaycan əlaqələri. Bu istiqamətdə çox önəmli addımlar atılır. Xüsusilə keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji təhlükəsizliyi üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu bizim niyyətimizi göstərir. Memorandumun icrası və sürətlə icrası, vaxtında icrası bir daha göstərir ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır.




Biz Avropa məkanına qaz ixracatımızı artırırıq. 2021-ci ildə əgər Avropaya 8 milyard kubmetr qaz ixrac etmişiksə, bu il bu rəqəm təqribən 12 milyard kubmetrə çatacaq. Bu, bizim ümumi ixracatımızın yarısı deməkdir, gələcək illərdə öz ixrac coğrafiyamızı Avropada genişləndirmək istərdik.

Dünən mənim 30-a yaxın almaniyalı iş adamı ilə görüşüm olmuşdur. İki saata yaxın davam edən bu görüşdə Azərbaycana, Azərbaycan iqtisadiyyatına, imkanlara Almaniya biznesi tərəfindən böyük diqqətin şahidi oldum. O cümlədən bərpaolunan enerji növlərinin birgə işlənməsi və istismarı istiqamətində çox gözəl imkanlar var, bu barədə də bu gün biz fikir mübadiləsi apardıq. Azərbaycanın çox geniş bərpaolunan enerji potensialı var. Təkcə Xəzər dənizinin külək enerji potensialı 157 qiqavata bərabərdir və artıq bir neçə kontrakt imzalanıb. Əminəm ki, gələcəkdə Azərbaycan Avropaya təkcə təbii qaz yox, yaşıl enerjini də ixrac edən ölkəyə çevriləcəkdir.



Bütövlükdə biznes imkanları çox genişdir. Mən almaniyalı iş adamlarını Azərbaycana dəvət etdim ki, onlar gəlsinlər və bizim müvafiq qurumlarla təmaslar əsnasında gələcək biznes imkanlarını yaxından incələsinlər.

Cənab Kanslerin dediyi kimi, biz, eyni zamanda, regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Ermənistan-Azərbaycan normallaşma prosesi ilə bağlı mən Azərbaycanın mövqeyini bildirdim. İstəyirəm ki, Almaniyanın mətbuat nümayəndələri bilsinlər ki, Azərbaycan 30 ilə yaxın erməni işğalına məruz qalmışdır. Bu işğal və etnik təmizləmə nəticəsində torpaqlarımızın 20 faizə yaxını işğal altına düşdü və bir milyon azərbaycanlı Ermənistan tərəfindən öz doğma torpaqlarından qovulmuşdur və qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Biz iki il yarım bundan əvvəl Vətən müharibəsi nəticəsində öz ləyaqətimizi, ərazi bütövlüyümüzü, hüquqlarımızı döyüş meydanında bərpa etdik, Ermənistanı məğlub etdik və məcbur etdik ki, Ermənistan bizim torpaqlarımızdan çıxsın. Beləliklə, 28 il ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyən Ermənistan cəmi 44 gün ərzində öz məğlubiyyəti ilə barışmalı olmuşdur.

Onu da bildirməliyəm, əfsuslar olsun ki, vaxtilə Qarabağı Ermənistan kimi tanıyan Ermənistan rəhbərliyi sülh şansını itirmişdir. 2019-cu ildə Ermənistanın bugünkü baş naziri demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə" və bu, faktiki olaraq sülh danışıqlarına vurulan ən böyük zərbə idi. 44 günlük Vətən müharibəsi zamanı biz sübut etdik ki, Qarabağ Azərbaycandır və nida işarəsini 2020-ci il noyabrın 8-də Şuşada qoyduq.

İndi isə sülhün zamanı çatıbdır. Biz Ermənistana sülh təklif etmişik, 5 prinsip əsasında sülh müqaviləsini təklif etmişik. Ümid edirəm ki, Ermənistan bu şansı qaçırmayacaq, nəhayət, Cənubi Qafqazda sülh və əməkdaşlıq dövrü başlayacaqdır. Təşəkkür edirəm.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# 44 günlük Vətən müharibəsi zamanı biz sübut etdik ki, Qarabağ Azərbaycandır və nida işarəsi

(Əvvəli 2-ci səhifədə)

Sonra mətbuat nümayəndələrinin sualları cavablandırılıb.

**Aparıcı**: **Əgər suallarınız varsa, buyurub verə bilərsiniz.**

ARD televiziyasından **Nikol Konat: Cənab Kanslerə başqa bir mövzu ilə əlaqədar sualım var. Amerikan bank sektoru ilə, "Silicon Valley Bank"la əlaqədardır. Almaniya nöqteyi-nəzərindən çıxış etsək, Sizcə bizim sərmayələrimizin təhlükəsizliyi təmin olunacaq, yoxsa yox?**

Kansler **Olaf Şolts**: Mən düşünürəm ki, biz 2009-cu ildəki bank böhranına baxsaq, bugünkü durumumuz daha yaxşıdır. Biz ötən böhrandan bir çox şeyi öyrəndik və aktual duruma hazırıq. Ona görə düşünürəm ki, narahatçılığa ehtiyac yoxdur. Amerikanın, Britaniyanın, Almaniyanın reaksiyasına əsasən, demək olar ki, hər şey, vəziyyət dəqiq qiymətləndirilir, nəzarət altındadır və müəyyən tədbirləri görmək üçün imkan mövcuddur. Ona görə Almaniyada narahat olmağa ehtiyac yoxdur, mən belə düşünürəm.





REAL televiziyasından **Kamran Qasımov**: **Cənab Kansler, sualım Sizədir. Martın 2-də Ermənistanın baş naziri ilə keçirilən mətbuat konfransında bildirdiniz ki, münaqişə Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü, eləcə də Dağlıq Qarabağın öz müqəddəratını təyinetmə hüququ əsasında həll oluna bilər və bu prinsiplər hamı üçün eynidir. Sualım belədir, yəni, bu prinsiplər Cənubi Osetiya, Abxaziya, Donbas, Dnestryanı kimi ərazilərə də şamil oluna bilərmi, şamil olunurmu? Təşəkkür edirəm.**

Kansler **Olaf Şolts**: Sualınıza görə təşəkkür edirəm. Çox asan cavab verə bilərəm. Biz aktual bir münaqişəni götürək. Tutalım Rusiyanın cəhdi, Ukraynanın bir hissəsini zəbt etsin, biz buna heç vaxt yol vermərik, biz bununla razı deyilik və bu, yalançı referendumların nəticəsi kimi Zaporojyeni, Luqanskı, Xersonu və digər hissələri özünə cəlb etməklə deyil, yəni, zəbt etməklə deyil. Biz bununla razı deyilik və biz burada öz mövqeyimizi aydın şəkildə bildirdik ki, BMT-nin Nizamnaməsi buna yol vermir, bu hərəkət beynəlxalq hüquqa ziddir. Eyni zamanda, öz mövqeyimizi aydın şəkildə bildirdik ki, axı biz, həmçinin Dağlıq Qarabağı respublika kimi qəbul etmədik, Dağlıq Qarabağı da tanımadıq.

**- Cənab Prezident, sual Sizədir. Siz Avropaya və Almaniyaya qaz ixracı haqqında məlumat verdiniz. Siz hansısa bir miqdarı deyə bilərsinizmi? Tutalım, Almaniyaya və yaxud Avropaya hansı miqdarda qaz göndərə bilərsiniz? Sizin şərtləriniz nədir? Ölkənizin şərtləri nədir? Uzunmüddətli əməkdaşlıqmı olmalıdır? Federal Kanslerə də sualım var. Cənab Kansler, Siz nə deyirsiniz, Qarabağ Azərbaycandırmı? Siz bayaq dediniz Dağlıq Qarabağı respublika kimi tanımırsınız. Qarabağ Azərbaycandırmı?**

Prezident **İlham Əliyev**: Biz Avropa məkanına təbii qazı iki ildən bir qədər çox zaman kəsiyində ixrac edirik və ildən-ilə bu rəqəmlər artır. Rusiya-Ukrayna müharibəsindən sonra bizə Avropanın 10 ölkəsindən, ən azı 10 ölkəsindən sifarişlər gəldi. Təkliflər gəldi ki, biz o ölkələrə də qaz təchizatını təmin edək, ya da ki, artıq qaz təchiz etdiyimiz ölkələrdə qaz həcmini artıraq. Biz keçən il Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumuna əsasən, 2027-ci ilə qədər 20 milyard kubmetr təbii qazı Avropa məkanına çatdırmağı planlaşdırırıq. Onu da bildirməliyəm ki, bizim qaz ixracatımız təkcə Avropa məkanı ilə məhdudlaşmır. Biz, eyni zamanda, bizim üçün ən böyük bazar olan Türkiyəyə və Gürcüstana da qaz ixrac edirik. Ona görə gələcəkdə qazın ixracatını Avropa məkanına çatdırmaq üçün, əlbəttə ki, yeni kontraktlar imzalanmalıdır. Hazırda Azərbaycan qazı Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılır. Bu ildən Rumıniyaya çatdırılmağa başlanmışdır. Bu ilin sonunda Macarıstana ilk qaz təchizatını həyata keçirmək fikrindəyik. Biz hazırda Albaniya hökuməti ilə Albaniyanın qaz təchizat şəbəkəsinin yaradılması və gələcəkdə Albaniyaya da qaz ixracatını təmin etmək üçün danışıqlara başlamışıq. Bizə sifariş edən ölkələr sırasında, eyni zamanda, Çex Respublikası, Monteneqro, Bosniya və Herseqovina, Xorvatiya və digər ölkələr var. Təbii ki, Avropada yaranmaqda olan interkonnektorlar da çox mühüm rol oynayır. Nə qədər çox interkonnektor olarsa, bir o qədər də bizim Avropa məkanında qaz ixracat coğrafiyası genişləndirilə bilər. Təbii ki, uzunmüddətli kontraktlar imzalanmalıdır. Çünki yaxşı bilirik ki, Avropada yaşıl keçidə meyillər çox yüksəkdir və biz uzunmüddətli kontraktlarda maraqlıyıq. Ümid edirəm ki, biz bu məsələləri bir-biri ilə uzlaşdıra biləcəyik. Eyni zamanda, Azərbaycanda bərpaolunan enerji növlərinə qoyulan sərmayəni nəzərə alsaq, hazırda elektrik enerjisinin istehsalına sərf olunan təbii qaz da Avropaya ixrac edilə bilər və beləliklə, gələcəkdə bizim nəzərdə tutduğumuzdan daha böyük rəqəmlə bizim ixracatımız ölçülə bilər.



Kansler **Olaf Şolts**: Suala görə təşəkkür edirəm.

Cənab Prezident, Sizin verdiyiniz məlumata görə təşəkkür edirəm. Ürəkaçan məlumatdır və Azərbaycanın Avropaya ixrac edəcəyi miqdar təbii ki, bizim gələcəyimiz üçün vacibdir və maraqlarımız eynidir. Yenidən bərpaolunan enerji üzrə infrastrukturun inkişafı, tikintisi hər ikimizin marağına uyğundur. Təbii ki, yaşıl enerjinin də Azərbaycandan



ixracı üçün potensial mövcuddur. Bu sahədə həm orta, həm də uzunmüddətli əməkdaşlıq mümkündür. Təbii ki, biz tullantılardan azad enerjidə maraqlıyıq və bu sahədə bunu birgə təmin edə bilərik.

İkinci sualla əlaqədar qeyd etmək istərdim ki, Almaniya hələ o vaxt beynəlxalq səviyyədə öz fikrini bildirib və Dağlıq Qarabağı respublika kimi tanımamışdır. Yəni, bununla da öz mövqeyini bildirmişdir.

Azərbaycanın İctimai Televiziyasından **Fikrət Doluxanov: Cənab Kansler, sualım Sizədir. Statistikaya baxsaq görərik ki, 2021-ci ildə Almaniyanın Ermənistana ixracı 178 milyon avro təşkil edib. 2022-ci ildə isə bu rəqəm artıq 505 milyon avroya çatıb. Eyni zamanda, Avropa İttifaqının Ermənistana ixracı 2021-ci ildə 753 milyon avro idisə, 2022-ci ildə artıq bu rəqəm 1,3 milyard avroya çatdı. Maraq doğuran fakt odur ki, Ermənistanın Rusiyaya ixracı 2021-ci ildə 800 milyon dollar idi. 2022-ci ildə isə bu rəqəm üçqat artdı və faktiki olaraq 2,4 milyard dollara çatdı. Bu təəccüb doğuran rəqəmlər Avropa İttifaqında və Almaniyada araşdırılırmı? Çünki bu rəqəmlər faktiki olaraq Ermənistanın Rusiyaya qarşı qoyulan sanksiyalardan yayınmasını göstərir, sübut edir. Bu, Almaniya və Avropa İttifaqı tərəfindən araşdırılacaqmı və Ermənistan bu fəaliyyətə görə hansı formada cəzalandırıla bilər? Çox sağ olun.**

Kansler **Olaf Şolts**: Sualınıza görə təşəkkür edirəm. Qısaca cavab verim. Biz müxtəlif ölkələrin ixraca-idxala aid müxtəlif rəqəmlərinə baxmışıq, nəzərdən keçirmişik, həm Almaniyada, həm Avropa İttifaqı üzrə. Harada artmalar nəzərə çarpır, təbii ki, yoxlayırıq, iqtisadiyyatın inkişafı iləmi əlaqədardır, nə ilə əlaqədardır? Avropa İttifaqının adi bir rutinasıdır ki, dünyada hər bir ölkəyə diqqətlə baxsın. Bununla əlaqədar müvafiq ofislər var, hansı ki, bununla birbaşa məşğuldurlar. Biz hamıya deyirik, hər bir ikitərəfli danışıqlarda da deyirik, xahiş edirik diqqət yetirin ki, sanksiyalardan yan keçilməsin. Avropa Komissiyasının Prezidenti də bu fikri açıq şəkildə bildirmişdir. Təşəkkür edirik.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri martın 14-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin Brandenburq "Willy Brandt" aeroportunda Azərbaycan Prezidentini rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri: "Azərbaycan Ordusu istənilən təxribatın qarşısını almaq məqsədilə qəti zəruri addımlar atacaq"

*Martın 11-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müşavirədə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, hərbi birlik komandirləri, həmçinin videobağlantı vasitəsilə hərbi birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu vəzifələri müşavirə iştirakçılarına çatdırıb.

Azərbaycan-Ermənistan şərti dövlət sərhədi boyu və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti ətraflı təhlil edilib.

Ordumuzun bölmələri tərəfindən dəfələrlə müşahidə olunan, Ermənistanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycanın suveren ərazilərində qalan qeyri-qanuni erməni silahlı birləşmələri üçün hərbi daşımaları və canlı qüvvənin rotasiyasını həyata keçirməsinin yolverilməz olduğu bildirilib.

Müdafiə naziri qeyd edib ki, qarşı tərəfin, o cümlədən qeyri-qanuni erməni silahlı birləşmələrinin fəaliyyətlərinin fasiləsiz müşahidəsi bundan sonra da davam etdirilməlidir. Ordumuz bölgədə süni gərginlik yaratmağa çalışan Ermənistanın ehtimal edilən təhdidlərinə qarşı preventiv tədbirlər görməli və zərurət yarandıqda adekvat cavab verməlidir.

Bildirilib ki, Azərbaycan Ordusu istənilən təxribatın qarşısını almaq üçün qəti zəruri addımlar atacaq.

General-polkovnik Zakir Həsənov silahlanmaya yeni qəbul edilən silah və döyüş texnikasının şəxsi heyət tərəfindən öyrənilməsi və döyüş tapşırıqlarının icrası zamanı effektiv tətbiqinə dair konkret tapşırıqlar verib.



Hərbi qulluqçuların peşəkarlığının və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması məqsədilə keçirilən təlimlərin real döyüş şəraitinə uyğun təşkil edilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı təhlükəsizlik qaydalarına riayət edilməsi və yanğın əleyhinə zəruri tədbirlərin görülməsinin əhəmiyyəti qeyd olunub.

Novruz bayramı günlərində bölmələrin döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması, döyüş növbətçiliyinə cəlb edilən şəxsi heyətin sayıqlığının daha da artırılması barədə konkret tapşırıqlar verilib.

Daha sonra Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə əlaqədar müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda keçirilən tədbirlər barədə məruzələr dinlənilib, bu istiqamətdə fəaliyyətlərin davam etdirilməsi barədə aidiyyəti vəzifəli şəxslərə göstərişlər verilib.

Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraiti, həmçinin tibbi təminatı ilə bağlı tələbləri müşavirə iştirakçılarına çatdırıb.

Azərbaycan Ordusunda mənəvi-psixoloji vəziyyətin, eləcə də döyüş ruhunun daim yüksək səviyyədə saxlanılmasına dair göstərişlər verən nazir şəxsi heyətə hər zaman diqqət və qayğı ilə yanaşılmasının vacibliyini vurğulayıb.

Sonda azad edilmiş ərazilərdə yerinə yetirilən mühəndis təminatı tədbirlərinin intensivliyinin artırılması barədə aidiyyəti üzrə müvafiq göstərişlər verilib.

# Baş Qərargah rəisi ABŞ-ın Avropa Komandanlığının nümayəndə heyəti ilə görüşüb

*Martın 14-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ABŞ-ın Avropa Komandanlığının tərəfdaşlıq, təhlükəsizlik və siyasət imkanları üzrə direktor müavini briqada generalı Edvard Voqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Əvvəlcə qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirələrini ehtiramla yad ediblər.



Nümayəndə heyətini salamlayan Baş Qərargah rəisi onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlar, azad edilən ərazilərdə görülən işlər, həmçinin Azərbaycan-Ermənistan şərti dövlət sərhədi və Qarabağ iqtisadi rayonundakı cari vəziyyət barədə məlumat verib.

Görüşdə ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətləri üzrə əldə edilmiş müsbət nəticələrdən, o cümlədən Oklahoma ştatının milli qvardiyası ilə Azərbaycan Ordusu arasında qarşılıqlı əlaqələrin cari vəziyyətindən məmnunluq ifadə edilib.

Briqada generalı E.Voqan Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfəyə görə minnətdarlığını bildirib, mövcud əməkdaşlığın inkişafının vacibliyini diqqətə çatdırıb.

Sonda Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlığın perspektivləri və regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

# "Ordumuzun mövqelərini atəşə tutan Ermənistan silahlı bölmələrinə cavab atəşi açılıb"

Müdafiə Nazirliyi Azərbaycan Ordusu tərəfindən Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Yuxarı Şorca istiqamətində mövqelərinin atəşə tutulması ilə bağlı erməni mətbuatının yaydığı məlumatı şərh edib.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin şərhində deyilir: "Azərbaycan Ordusunun mövqelərini atəşə tutan Ermənistan silahlı qüvvələrinin bölmələrinə qarşı cavab atəşi açılıb.

Bundan sonra da bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görüləcək".

# Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin birgə bəyanatı

11 mart 2023-cü il tarixində İran İslam Respublikasına məxsus hərbi təyyarə saat 09:44-dən 10:26-dək fasiləsiz olaraq Azərbaycan-İran dövlət sərhədi boyunca, Zəngilan rayonu istiqamətindən Biləsuvar rayonu istiqamətinə və geriyə doğru uçuş həyata keçirib.

Təyyarə iki ölkə arasında dövlət sərhədindən 3-5 km məsafədə, bəzi hallarda isə dövlət sərhədinin tam üstü ilə uçub.

Hərbi təyyarələrin dövlət sərhədinə yaxınlaşması ilə bağlı qonşu dövləti əvvəlcədən xəbərdarlıq etməyə dair beynəlxalq aləmdə qəbul olunmuş təcrübəyə zidd olaraq, İran İslam Respublikasının hərbi təyyarəsinin iki ölkə arasında dövlət sərhədinə bu qədər yaxınlaşması və sərhəd xətti üzərindən uçması mülki aviasiyanın təhlükəsizliyinə təhdid törədir və iki ölkə arasında münasibətləri daha da gərginləşdirməyə xidmət edir.

İşğaldan azad edilmiş Azərbaycan ərazilərinin yaxınlığında yarım saatdan çox müddət ərzində hərbi təyyarənin uçuşu Azərbaycana qarşı təxribat və qeyri-dost davranışdır. Xatırlatmaq istərdik ki, İran tərəfi ötən il də Araz çayı boyunca Azərbaycan sərhədləri yaxınlığında genişmiqyaslı hərbi təlimlər keçirmişdi.

İran tərəfini bu cür təhrikçi addımına görə şiddətlə qınayır, müvafiq izahat verməyə və gələcəkdə belə təxribatçı addımlardan çəkinməyə çağırırıq.

Martın 11-də İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb və ona müvafiq etiraz notası təqdim olunub.

# Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, martın 13-ü axşam saatlarından martın 14-ü səhər saatlarınadək Ordumuzun mövqeləri 19 dəfə fasilələrlə atəşə tutulub.*

Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu, Basarkeçər rayonunun Yuxarı Şorca, Qaraiman, Günəşli, Gorus rayonunun Qaraşen istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun İstisu, Mollabayramlı, Laçın rayonunun Cağazur, Daşkəsən rayonunun Astaf və Təzəkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Bundan başqa Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Şəhidin xatirəsinə həsr olunan anım mərasimi keçirilib



Vətən torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Cavid Həsənovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları, eləcə də döyüş yoldaşlarının iştirak etdiyi tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu zəfərin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Tədbir iştirakçılarına C.Həsənovun ömür və döyüş yolundan bəhs edən videoçarx nümayiş etdirilib.

Şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim



uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**İsa İSMAYILOV**
**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan Ordusunda Beynəlxalq Humanitar Hüquq normalarının öyrənilməsi və tətbiqi

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı qarşıya qoyulmuş bütün döyüş tapşırıqlarını Beynəlxalq Hüquq normaları çərçivəsində şərəflə yerinə yetirmişdir. Lakin buna baxmayaraq düşmən öz iyrənc siyasəti və məqsədlərindən əl çəkməyərək beynəlxalq aləmdə dövlətimizə və ordumuza müxtəlif yollarla ləkə gətirmək üçün Beynəlxalq Humanitar Hüquq normalarının pozulması ilə əlaqədar yalan məlumatlarını yaymaqda davam etməkdədir. Halbuki, aparılan döyüş əməliyyatlarında qarşı tərəf bütün Beynəlxalq Humanitar Hüquq normalarını vəhşicəsinə pozaraq dinc əhalini atəşə tutmaqdan belə çəkinməmişdir.

Hərbi hissələrdə bu mövzuda şəxsi heyətlə mütəmadi olaraq seminarlar keçirilməkdədir. Seminarlar çərçivəsində Beynəlxalq Humanitar hüququn məqsəd və vəzifələrini əks etdirən bir sıra prinsipləri, silahlı münaqişələrin humanistləşdirilməsi, döyüş aparılmasının metod və vasitələrinin seçilməsində vuruşan tərəflərin üzərinə məhdudiyyətlərin qoyulması, müharibə qurbanlarının beynəlxalq-hüquqi müdafiəsi, mülki obyektlərin və mədəni mülkiyyətin mühafizəsi, hərbi zərurətin və ictimai qaydanın qorunmasının insana hörmətlə uzlaşdırılması və başqa normalar haqqında əsgərlərimiz məlumatlandırılırlar.

Əlavə olaraq hüquq normalarının pozulması halları və onlara görə məsuliyyət mövzusunda şəxsi heyətlə söhbətlər aparılır. Bildirilir ki, Beynəlxalq Humanitar Hüquq normalarının qadağan etdiyi döyüş əməliyyatlarının aparılmasının üsul və vasitələrinin tətbiqi, həmin pozuntuların ictimai təhlükəsizliyi, silahlı münaqişə iştirakçılarına və mülki əhaliyə əsassız əzab-əziyyətin verilməsi qadağandır. Həmçinin əhalinin həyat təhlükəsizliyini təmin edən təsərrüfat obyektlərinin dağılmasına, mədəni sərvətlər və memarlıq abidələrinin əbədi olaraq itirilməsini, ətraf mühitə ziyanın vurulmasına səbəb olan halların yolverilməzliyi izah edilir.

Seminarlar zamanı şəxsi heyətə "Müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlərə görə cinayət məsuliyyətindən azad edilməsi üçün müddətlərin tətbiq olunması haqqında" 26.11.1968-ci il tarixli Konvensiyanın 1-ci maddəsinə və Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsinin 6-cı maddəsinə uyğun olaraq insanlıq əleyhinə cinayətlərə heç bir müddət şamil olunmadığı bildirilir. Həmçinin müharibə cinayətkarlarına sığınacaq almaq hüququnu tənzimləyən normaların şamil olunmaması, belə ki, "Ərazi sığınacağı haqqında" 14.12.1967-ci il tarixli Bəyannaməyə görə sülh və bəşəriyyət əleyhinə cinayətlər törətməkdə əsaslı olaraq şübhəli bilinən şəxsin sığınacaq almaq hüquqlarının olmadığı və həmin hüquqdan istifadə edə bilməyəcəyi barədə normalar çatdırılır.

**Silahlı Münaqişələr Hüququ normalarının pozulmasına görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyət**

Beynəlxalq Humanitar Hüquq normalarının qadağan etdiyi döyüş əməliyyatlarının aparılmasının üsul və vasitələrinin tətbiqi, həmin pozuntuların ictimai təhlükəliliyini təşkil edir. Belə pozuntular BHH normalarının riayət olunmamasına, silahlı münaqişə iştirakçılarına və mülki əhaliyə əsassız əzab-əziyyətin verilməsinə, qurbanların sayının artmasına, əhalinin həyat təhlükəsizliyini təmin edən təsərrüfat obyektlərinin dağıdılmasına, mədəni sərvətlər və memarlıq abidələrinin əbədi olaraq itirilməsinə, ətraf mühitə ziyanın vurulmasına səbəb olur. Buna erməni silahlı birləşmələrinin işğal altında olan Azərbaycan Respublikasının ərazilərində yerləşən meşə massivlərinin qırılmasını, tarixi abidələrin talan edilməklə oğurlanıb daşınmasını, yaşayış sahələrinin qarət edilərək dağıdılmasını misal çəkmək olar.

Belə cinayətlərin motivləri müxtəlif ola bilər: qisas, tamah məqsədi, vəzifə hərisliyi, eləcə də ideoloji (irqçi, faşist, millətçi və s.).

Bu cinayətlər qəsdən və ya ehtiyatsızlıqdan törədilə bilər.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 40-cı maddəsinə əsasən, bilə-bilə qanunsuz əmri və ya sərəncamı yerinə yetirməklə qəsdən cinayət törətmiş şəxs ümumi əsaslarla cinayət məsuliyyətinə cəlb olunur. Qanunsuz əmr və ya sərəncamın yerinə yetirilməməsi cinayət məsuliyyətinə səbəb olmur. Həmin Məcəllənin 16-cı fəslində sülh və insanlıq əleyhinə aşağıdakı cinayətlər nəzərdə tutulur:

- təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma (maddə 100);
- təcavüzkar müharibəni başlamağa açıq çağırışlar (maddə 101);
- beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücumetmə (maddə 102);
- soyqırımı (maddə 103);
- soyqırımın törədilməsinə təhriketmə (maddə 104);
- soyqırımı əlamətləri olmadan əhalini məhv etmə (maddə 105);
- köləlik (maddə 106);
- əhalini deportasiya etmə və ya məcburi köçürmə (maddə 107);
- cinsi zorakılıq (maddə 108);
- məcburi hamiləlik (maddə 108-1);
- təqib (maddə 109);
- insanları zorakılıqla yoxa çıxarma (maddə 110);
- irqi ayrı-seçkilik (aparteid) (maddə 111);

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 17-ci fəslində müharibə cinayətləri göstərilir. Burada aşağıdakı cinayətlər nəzərdə tutulur:

- muzdluluq (maddə 114);
- müharibə qanunlarını və adətlərini pozma (maddə 115);
- silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma (maddə 116);
- silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə (maddə 117);
- hərbi soyğunçuluq (maddə 118);
- müdafiə olunan nişanlardan sui-istifadə (maddə 119).

Müasir beynəlxalq hüquqa görə, müharibə cinayətkarları müddətlərin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad edilə bilməzlər. Belə ki, "Müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlərə görə cinayət məsuliyyətindən azad edilməsi üçün müddətlərin tətbiq olunması haqqında" 26.11.1968-ci il tarixli Konvensiyanın 1-ci maddəsinə əsasən, Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsinin 6-cı maddəsinə uyğun olaraq insanlıq əleyhinə cinayətlərə heç bir müddət şamil olunmur. Müharibə cinayətkarlarına sığınacaq almaq hüququnu tənzimləyən normalar da şamil olunmur. Belə ki, "Ərazi sığınacağı haqqında" 14.12.1967-ci il tarixli Bəyannaməyə görə sülh və bəşəriyyət əleyhinə cinayətlər törətməkdə əsaslı olaraq şübhəli bilinən şəxsin sığınacaq almaq hüququ yoxdur və o həmin hüquqdan istifadə edə bilməz.

**Müdafiə Nazirliyi**
**Hüquq İdarəsi**

# Hərbi qulluqçulara psixoloji dəstək fəaliyyətləri davam etdirilir



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabit və dövlət qulluqçuları tərəfindən plana uyğun olaraq təlim hərbi hissələrində şəxsi heyətə psixoloji dəstək fəaliyyəti həyata keçirilib.*

Keçirilən tədbirlər çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşması, psixoloji sağlamlıqlarının qorunması məqsədilə onlarla qrup və fərdi qaydada psixoloji yardım fəaliyyəti həyata keçirilib, psixoloji, ideoloji iş üzrə profilaktik söhbətlər aparılıb.

Həmçinin gənc nəslin milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində maarifləndirici söhbətlər aparılıb.

Bundan əlavə, gənc əsgərlərin təlim və tərbiyəsi prosesində iştirak edən zabit və psixoloqlara psixoloji işə aid olan üsul və vasitələrin düzgün tətbiqi, peşəkar vərdişlərin inkişaf etdirilməsi məqsədilə metodiki tövsiyələr verilib.

Sonda şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

**İsa İSMAYILOV**
**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

**Mövzu:** Azərbaycan xalq eposlarında milli qəhrəmanlıq nümunələri (“Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanları əsasında)

**Suallar:**

**1. “Kitabi-Dədə Qorqud” Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir.**

**2. Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır.**

## “Kitabi-Dədə Qorqud” Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir

Azərbaycan mədəniyyətinin ulu qaynağı olan "Kitabi-Dədə Qorqud" təkcə öz yarandığı çağda deyil, eyni zamanda, müasir dövrümüzdə də milli mənəviyyatımızın, ədəbiyyat və incəsənətimizin ideya bünövrəsi olaraq qalır. Azərbaycan tarixinin bütün milli-mənəvi dəyərlərini özündə cəmləşdirən bu ulu abidə elə bir enerji mənbəyidir ki, çağdaş milli mənəviyyat və mədəniyyət tariximizi onsuz təsəvvür etmək mümkün deyildir. "Kitabi-Dədə Qorqud"un milli tariximizin dünəni və bu gündəki rolunu müdrikcəsinə "Milli varlığımızın mötəbər qaynağı" kimi səciyyələndirən Ulu Öndər Heydər Əliyevin söylədiyi kimi: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim milli sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, Vətənini, müstəqil Azərbaycanı bir o qədər də çox sevəcəkdir".

Erkən orta əsrlərdə (VI-XI əsrlər) Azərbaycanda baş verən ictimai-siyasi hadisələr öz bədii əksini şifahi və yazılı ədəbiyyatda tapmışdır. Həmin dövrdə şəhərlərdə və oturaq əhali arasında daha çox sehrli nağıllar və dini rəvayətlər yayıldığı halda, maldarlıqla məşğul olan əhali arasında aşıq yaradıcılığı inkişaf etmişdi. Ozanlar el-el, oymaq-oymaq gəzərək xalq qəhrəmanlarının adına dastanlar qoşur və onları təbliğ edirdilər. Eyni zamanda, onlar xalqın məsləhətçisi, bilicisi hesab olunurdular. Ən məşhur ozanları xalq hörmətlə "dədə" adlandırırdı. "Kitabi-Dədə Qorqud" oğuz türk tayfalarının dilində Dədəm Qorqudun kitabı adlandırılırdı.

Qədim oğuz türklərinin məişətini, etik-estetik düşüncələrini əks etdirən qəhrəmanlıq eposu bu günümüzə şifahi və yazılı şəkildə gəlib çatmışdır. Azərbaycan qəhrəmanlıq eposunun böyük abidələrindən olan, Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ilk ən böyük ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"dur. "Kitabi-Dədə Qorqud" dastanları ilk dəfə elmə məlum olmayan şəxs tərəfindən 1052-ci ildə qələmə alınmışdır. Dastan təxminən beş əsr şifahi təzahür dövrü yaşamış, bundan sonra XI əsrdə yazıya alınmışdır. Dastanda bəhs edilən hadisələrin ərəb işğalından əvvəlki (V-VII əsrlər), müəyyən dövrün isə ərəb işğalı (VII-IX əsrlər) ərəfəsinin, bəzi boyların ondan da, xeyli əvvəl (V əsr) olmaları ehtimal edilir. Bu gün elmə məlum olan "Kitabi-Dədə Qorqud" əlyazmalarının Drezden, Vatikan və Berlin kitabxanalarında saxlanılan nüsxələri məlumdur. Həmin əlyazmalarda oğuz bəylərinin bahadırlıq və cəngavərlik rəşadətlərini düzüb qoşan və milli yaddaşa verən Dədə Qorqudun peyğəmbərimiz Həzrəti Məhəmmədlə (s.a.v.) bir dövrdə yaşadığı göstərilir.

"Kitabi-Dədə Qorqud" dastanında türk etnik qrupuna daxil olan oğuzların qəbilə və tayfa münasibətləri dövrünün hadisələri, oğuz tayfalarının dövlətçilik və idarəçilik ənənələri, Vətən, torpaq uğrundakı vuruşları, sivil mədəniyyətə doğru tarixi inkişafı əks etdirilir. Dastanda təsvir olunan hadisələr xanlar xanı Bayandır xanın başçılıq etdiyi, iyirmi dörd sancağı (el, vilayət) birləşdirən Oğuz dövlətində cərəyan edir. Dövlətçilik düşüncəsi kontekstində yanaşmada Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş böyükdən-kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir.

"Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir. Böyüyə hörmət, ata-anaya məhəbbət iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, Vətəninə sədaqət - bu insani keyfiyyətlər, mənəvi məziyyətlər Qorqud övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur və son mənzilə qədər də onlarla birlikdə gedir. Dədə Qorqud dünyasındakı milli dəyərlər, stereotiplər, rituallar sistemi, əslində, hər bir azərbaycanlının mentalitetində milli və ümumbəşəri dəyərlərin yerinin müəyyənləşdirilməsi də Dədə Qorqudu etik prinsiplərindən çıxış etməklə gerçəkləşir.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. "Oğuz tayfaları dilindən Dədəm Qorqud kitabı" adlanan Drezden nüsxəsi bir müqəddimə və 12 boydan Vatikan nüsxəsi isə eyni müqəddimə və 6 boydan ibarətdir. Bu isə onu göstərir ki, hər iki nüsxə daha qədim bir nüsxədən köçürülmüşdür.

Qafqazda olmuş alim və səyyahlar "Kitabi-Dədə Qorqud"dan dəfələrlə bəhs etmişlər. Adam Oleari adlı səyyah 1638-ci ildə Dərbənddə azərbaycanlılardan Dədə Qorqud hekayətlərini eşitdiyini, Qazan xanın arvadı Burla xatunun, eləcə də Dədə Qorqudun özünün burada qəbirləri olduğunu göstərmişdir. Evliya Çələbi isə "Səyahətnamə"sində Dərbənddə Dədə Qorqudun qəbri olduğunu və şirvanlıların bu qəbrə böyük ehtiram və etiqad bəslədiklərini qeyd etmişdir.

Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında xalq dilinin incəliklərindən, atalar sözlərindən, məsələlərindən məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan dilinin tarixini öyrənmək baxımından zəngin mənbədir.

Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Göyçə gölü, Gəncə, Dərəşam, Əlincə, Qaradağ, Qaraçuq dağı və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edilir. Bayat elindən çıxmış bu bilicinin oğuzun müşkül məsələlərini həll edərək gələcəkdən xəbər verdiyi göstərilir. Azərbaycanda Dədə Qorqudun bütün əşyalara ad verməsi barədə rəvayət mövcuddur. "Kitabi-Dədə Qorqud" boylarında da Dədə Qorqud şücaət göstərən igidlərə ad qoyur, çətin zamanlarda xalqın köməyinə gəlir, müdrik məsləhətləri ilə onlara yol göstərir.

"Kitabi-Dədə Qorqud" boyları müxtəlif hadisələrdən və ayrı-ayrı oğuz igidlərinin qəhrəmanlığından bəhs etsə də, onlar bir-biri ilə bağlı olub vahid dastan təsiri bağışlayır. Dastanlarda oğuzun yaşlı (Qazan xan, Dirsə xan, Qazılıq Qoca, Bəkil, Baybecan, Aruz, Qaragünə) və gənc (Beyrək, Uruz, Basat, Yeynək, Qarabudaq, Əmran, Səgrək, Buğac) nəslə mənsub qəhrəmanlarından söhbət açılır. Qəhrəmanlıq ruhu abidənin əsas qayəsini təşkil edir. Dastanlarda igidlər yalnız öz şücaəti ilə ad-san qazanırlar. Qəhrəmanlıq göstərməyən cavanlara ad verilmir.

"Kitabi-Dədə Qorqud"un qəhrəmanlıq ruhu Vətən məhəbbəti ilə ayrılmaz vəhdətdədir. Oğuz bəyləri doğma yurdlarını qorumaq naminə hər cür fədakarlığa hazır igidlərdir. Oğuz igidləri Vətən, xalq, el yolunda öz canlarını düşünmədən fəda edən, öz şəxsi mənafeyini cəmiyyətin mənafeyinə hər an qurban verməyə hazır qəhrəmanlardır. Onların arasında məqsəd birliyi, ümumi mənafe uğrunda düşmənə qarşı birgə mübarizə ruhu hakimdir. Dastanlarda, eyni zamanda, xəyanət, həsəd, qorxaqlıq, fərarilik və s. kimi mənfi sifətlər kəskin tənqid olunur.

Eposda oğuz bəyləri ilə mübarizə aparan düşmən qəbilələri də təsvir edilir. Dastanlarda oğuzların düşmənə hücumları yalnız təcavüzkarlardan intiqam almaq məqsədi daşıyır. Qazan xan vuruş meydanında "qaçanı qovmur", "aman diləyəni öldürmür".

"Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatlarla zəngindir. Burada etik davranış normaları, ailə-məişət məsələləri öz əksini tapmışdır: oğul ata sözünü iki eləmir, ağsaqqal qocaya, ağbirçək qarıya hörmətsizlik bağışlanılmaz günah sayılır, yoldaşını döyüş meydanında qoyub qaçanlar amansız cəzalandırılır və s.

"Kitabi-Dədə Qorqud" eposunun qəhrəmanlıq ruhu qadın obrazlarında və onların davranışlarında da aydın görünür. Dastanda təsvir edilən mərd, əyilməz qadınlardan Qazan xanın qadını Burla xatun igidlikdə ərindən geri qalmır, döyüş meydanında hünər göstərir. Başqa qadın obrazları da (Banuçiçək, Selcan xatun və b.) namuslu, tədbirli, təmkinli, ağıllı və dözümlüdürlər.

"Kitabi-Dədə Qorqud" dastanlarının Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında mühüm rolunu nəzərə alan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dastanların dünya miqyasında təbliği, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi üçün "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyi haqqında 20 aprel 1997-ci ildə fərman imzalamışdır. 2018-ci il noyabrın 28-də "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi YUNESKO-nun Qeyri-Maddi İrs üzrə Reprezentativ siyahısına daxil edilmişdir.

## Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır

Dilimizin, ədəbiyyatımızın, tariximizin, ümumən mədəniyyətimizin ən nadir incilərindən, şah abidəmiz "Kitabi-Dədə Qorqud"dan sonra yaranan ikinci böyük qəhrəmanlıq eposu "Koroğlu"dur. Dastanda xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, onun haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, Səfəvilər dövləti və Osmanlı imperiyası arasında müharibələr Azərbaycan xalqının maddi rifahının ağırlaşmasına və xalq kütlələrinin narazılıqlarına səbəb olurdu. XVI əsrin sonunda Şeyx Cəlalın (Cəlalilər hərəkatı) başçılığı ilə Anadoluda vüsət alan kəndli hərəkatı XVII əsrin əvvəllərində Azərbaycana da yayıldı. Müxtəlif tayfalar içərisindən çıxmış Cəlali dəstə başçılarından ən məşhuru Azərbaycan türkü Koroğlu idi. Rəvayətə görə Koroğlunun əsl adı Rövşən olub. Həsən xan tərəfindən atası Alı kişinin gözlərinin çıxarılması Rövşəndə zülmə və haqsızlığa qarşı dərin nifrət oyadır. O, haqsızlığa, ədalətsizliyə son qoymaq, məzlumların intiqamını almaq üçün qılınca sarılıb dağlara, Çənlibel (Gədəbəy rayonun Qalakənd ərazisi) qalasına çəkilir. Ağa, bəy, xan zülmündən cana doymuş, xoşbəxt həyat arzusu ilə yaşayan yoxsul gənclərin üz tutduğu Çənlibel azadlığın hökm sürdüyü yurda, Rövşən isə Koroğluya çevrilir.

Şifahi xalq ədəbiyyatında Koroğlunun adı ilə bağlı hadisələr əfsanələşdirilərək öz əksini "Koroğlu dastanı"nda tapmışdır. Dastanda Naxçıvan ərazisi, Salmas, Xoy Koroğlunun ən çox fəaliyyət göstərdiyi yerlərdəndir. Dastanın bir çox variantlarında Koroğlunun iqamətgahı olan Çənlibel qalasının Naxçıvanda və Makuda yerləşdiyi göstərilir. Koroğlu mərdliyi, ədalətli olmasıyla və igidliyi ilə xalq kütlələrinin hədsiz məhəbbətini qazanmışdı. Koroğlunun başına yığışan, ətrafında sıx birləşən dəlilər - silah yoldaşları üçün ümumi olan cəhətlər az deyildir; mərdlik, qorxmazlıq, haqqın, ədalətin tərəfində durmaq, dostluqda sədaqətli olmaq, düşmənə nifrət və s. onları birləşdirən cəhətlərdəndir. Bu igidləri bir-birindən fərqləndirən xüsusiyyətlər də çoxdur. Dəli Həsən təmkinli, tədbirli olması ilə seçilir. Eyvaz səmimiliyi ilə dəlilərin sevimlisi olur. Bəlli Əhməd təvazökarlığı, Dəmirçioğlu isə səbirli və dözümlülüyü ilə diqqəti cəlb edir.

Tədqiqatçı alimlər tərəfindən Azərbaycan və Gürcüstan fondlarında saxlanılan naməlum müəlliflərin əlyazmalarında Koroğlunun ayrı-ayrı şeir və qoşmaları aşkar edilmişdir. Koroğlunun silahdaşlarından ayrı-ayrı dəstə başçıları - Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Tanrıtanımaz, Abaza paşa, habelə dastandakı mənfi personajların bir çoxu tarixdə yaşamış şəxslər hesab olunurlar. Bütün bunlar qəhrəman cəsarətini, xalq müdrikliyini, ədaləti özündə birləşdirən, nəğməkar, aşıq sənətinin bilicisi Koroğlunun real tarixi şəxsiyyət olduğunu deməyə əsas verir.

Azərbaycanda "Koroğlu" dastanının ilk nəşri 1913-cü ilə təsadüf edir. Bundan başqa dastanın 1927, 1929, 1941, 1949, 1956, 1975, 1983 və 1997-ci il nəşrləri də mövcuddur.

Azərbaycanın torpaqlarına olduğu kimi, mədəniyyətinə də iddialı olan ermənilər hətta "Koroğlu"nu da özününküləşdirmək kimi cəfəng xülyalarda olmuşlar. Tarixi bir faktdır ki, ötən əsrin 20-30-cu illərində Azərbaycanda fəaliyyət göstərən Tədqiq və Tətəbbə Cəmiyyəti xətti ilə aparılan ekspediyalar əsasında 1936-cı ildə eposun 20 qoldan ibarət yeni, daha mükəmməl nəşri çapa hazırlanmışdı. 1936-cı ilin dekabrında müstəntiq E.Qriqoryan tərəfindən həmin əlyazma Ermənistana, "mətndə ermənilərdən oğurlanmış qolları üzə çıxarmaq üçün" rəyə göndərilmişdi. Sonralar həmin qolların bir çoxu ermənilərin düzəlişləri ilə erməni mətbuatında "azərbaycanca və ermənicə çalıb-çağıran erməni aşıqlarından yazıya alınmış nümunələr" kimi nəşr edilmişdir. 1941-ci ildə isə İrəvanda "Koroğlu"nun erməni variantı üzə çıxıb. Nəşrə ön söz yazan erməni tədqiqatçısı X.Samuelyan mətni xeyli təriflədikdən sonra fikrini qısa və lakonik ifadə etmişdir: "...Erməni xalqının "Koroğlu" eposu yoxdur, bu, Azərbaycan aşıqlarının repertuarındakı dastandır". Göründüyü kimi, tarixən türk mədəniyyətinin mənimsəyib saxtalaşdırmağın mahir ustadı olan ermənilər "Koroğlu" eposunu özününküləşdirməkdə "düyünə düşmüşlər". Bu "düyün", əslində, eposun milli mahiyyəti ilə bağlıdır. Çünki hər bir epos onu yaradan xalqın milli həyat, milli düşüncə tərzinin güzgüsüdür, milli şüurunu əks etdirir. Azərbaycan dastanı Azərbaycan xalqının milli şüurunun məhsuludur və onu nə qədər saxtalaşdırmaq istəsən, dastanın hər bir poetik elementi, xüsusilə dastanın ən əlahiddə hadisəsi olan qəhrəman obrazı bütün poetik varlığı ilə Azərbaycan varlığından xəbər verəcəkdir. Bütün bunlar bizə bir daha erməni xislətinin iç üzünü açıb göstərir.

Xalqımızın qəhrəmanlıq ənənələrini əks etdirən xalq ədəbiyyatı nümunələri əsrlərdən keçərək bu gün bizə çatmış və milli-mədəni sərvətimizə çevrilmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bütün sahələrə olduğu kimi, tariximizə, mədəniyyətimizə də diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən, latın qrafikası ilə ilk növbədə kütləvi nəşr ediləcək Azərbaycan xalq ədəbiyyatı nümunələri arasında "Kitabi-Dədə Qorqud" eposunun 3 clddə, "Koroğlu" dastanının 2 cilddə çapı nəzərdə tutulmuşdur.

Tariximizi, soykökümüzü, mənşəyimizi, məskənimizi müəyyənləşdirən "Kitabi-Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq salnaməsi kimi dəyərli əsərlər Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyətə malik olmuş, əzəli və əbədi torpaqlarımızın işğaldan azad edilməsində tarixi ədalətin bərpa olunmasında müstəsna rol oynamışdır.

**İdeoloji iş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Azərbaycan əsgəri ilaxır çərşənbədə niyyət tonqalı yandırdı



Bu tonqalın şöləsi həlimləşən gecənin gözlərinin işığına dönüb. Gecənin gözəlliyini qənirsiz niy-yətə ad olan tonqalın özü boyda işığının əhatəsində təkcə təbiətin fəsli kimi deyil, həm də gözəl yaz ovqatı ilə ruhumuzun fəsli kimi yaşayırıq. Yaz biçimli bu gözəl gecədə həzin-həzin əsən mehi üç il əvvəl ruhumuzun gözaydınlığı olmuş bir payız səhərinə salavat bilirik...

Azərbaycan əsgəri niyyət tonqalı çatıb. Bu tonqal yerə-göyə sığmayan məhəbbət tonqalıdı. Bu məhəbbət Vətənə məhəbbətdi, dövlətə, dövlətçiliyə, xalqa məhəbbətdi. Bu məhəbbət ruhumuzun yaşatdığı məhəbbətdi. Bu məhəbbət xəlqi məhəbbətdi. Ona görə bunca dönməzdi...

Bu tonqal tarixləşən Zəfərə sədaqət tonqalıdı.

İşğalçı Ermənistan 2020-ci il sentyabrın 27-də Azərbaycanın torpaqlarından - işğal etdiyi ərazilərdən Azərbaycan torpaqlarına hücum etdi. Azərbaycan Ordusunun hissələri hücumun qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Bu, İkinci Qarabağ müharibəsi - azərbaycançılığın erməniliyə qarşı ədalətli müharibəsi idi, 28 il ruhumuzun sıxıntısına dönən işğalı sonlandırmalı müharibə idi, Bağanis-Ayrım, Ağdaban, Qaradağlı, Meşəli, Xocalı faciələrinin göy üzündə dolaşan harayların müharibəsi idi, dünyanı haqq yoluna qaytarmaq üçün yaşayanların müharibəsi idi...

Ordu hissələrimiz Ermənistanın işğal etdiyi ərazilərdə yaratdığı sədləri darmadağın etdi, mövqe qələbələri qazana-qazana ruhumuzun şəhərinə - Şuşaya yaxınlaşırdı. Dünyanı heyrətləndirən o döyüşlər Azərbaycan əsgərinin qətiyyətinin, Vətən sevgisinin, qələbə ruhunun döyüşləriydi. Bu döyüşlər təkcə Şuşanın işğaldan qurtuluş döyüşləri deyildi, işğalı sonlandıracaq döyüşləriydi. Rus jurnalisti yazırdı ki, belə döyüş, belə dövlət, Vətən sevgisi görən olubmu, demək çətindi. Azərbaycan əsgəri yaralını da, şəhidi də özü ilə aparırdı. Nəfəs dərmədən Şuşaya çıxdılar. Bu kəlmələrdə Azərbaycan əsgərinə ehtiram var, sevgi biçimli rəğbət var. İlaxır çərşənbədə Azərbaycan əsgərinin yandırdığı tonqalın işığında bu rəğbət də, bu sevgi də aydınlığıyla görünür...

Bu tonqal Azıx, Tağlar dünyasına ziyarətin tonqalıdı. Belə ziyarət xalqın ilkinə, başlanğıca mənəvi dönüşüdü - sabahlara aparan yeni uğur deməkdi. Bu tonqal qanına dolan, tamahının qulu olan dünyanı 2020-ci ilin noyabrında Haqqın yoluna qaytaranlara Azıxın, Tağların mənəvi uğurlamasıdı. Azıxın, Tağların timsalında neçə min illərin tarixini yaşadan məkanların xeyir-duasıdı.

Azıx da, Tağlar da Xocavənddədi. Onlar da 28 il işğalda qalmışdı. Düşmən təkcə torpaqlarımızı deyil, tariximizin ən qədim bir mərhələsini də işğal etmək niyyətindəydi. Düşmən də, onun havadarları da unudurdular ki, bu tarix təkcə bizim yox, bəşəriyyətin tarixidi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il martın 15-də - ilaxır çərşənbədən bir gün əvvəl Azıxda çıxışında demişdi: "Bu, dünyanın ən qədim insanının ən qədim yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar...". Bu kəlamların işığı erməniliyin törətdiklərinin birinin də gizlincini işıqlandırır. Bu tonqal müqəddəsliyin tonqalıdı, müqəddəslikdə səmavi qüdrət olur - bu tonqalın ziyası təkcə erməniliyin deyil, məmləkətimizə, xalqımıza korş baxanların hamısının zahirdə elədiklərinin batinini də işıqlandıracaq. İlaxır çərşənbədə Azərbaycan əsgərinin yandırdığı tonqal həm də bu niyyətin tonqalıdı...

Azərbaycan əsgərinin ilaxır çərşənbədə yandırdığı tonqal tarixin daş yaddaşına tarix yazan qətiyyətin tonqalıdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətinin qətiyyəti - "Bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək" - Azərbaycan əsgərinin döyüş əzmi idi, qələbə ruhu idi. Azərbaycan əsgəri qətiyyətlə döyüşürdü, düşmənin dayaq məntəqələrini, komanda məntəqələrini, döyüş texnikalarını, canlı qüvvəsini məhv edə-edə qələbələr qazanırdı. Bu qələbələr Azərbaycan əsgərini İkinci Qarabağ müharibəsinin sonuncu güllələsinin atılacağı məqama yaxınlaşdırırdı...

Azərbaycan Ordusu tarixi Zəfər qazandı - 8 Noyabr Zəfər Günü kimi tarixləşdi...

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bu müharibədə qazanılmış Zəfərin sonrasını o qədər duyğusallıqla ifadə edib ki! - "Azərbaycan torpaqları illərdi həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələn çay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır". Azərbaycan əsgərinin ilaxır çərşənbədə çatdığı tonqal 2021-ci il iyunun 15-də Şuşada bağlanmış Şuşa Bəyannaməsinin tonqalıdı. Ona görə belə gur yanır...

Bu tonqal həm də Şər baş qaldıranda hər daşından alov dilli ox olan bir dövlətin apardığı ədalətli müharibədə noyabrın 8-ni Zəfər kimi tarixləşdirən qüdrətin tonqalıdı, Azərbaycanla Türkiyənin mənəvi birliyinin tonqalıdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Bu onu göstərir ki, biz həmişə bir yerdə olacağıq və bir-birimizin təhlükəsizliyini təmin edəcəyik"...

Türkiyə həmişə Azərbaycanın, Azərbaycan həmişə Türkiyənin yanında olub. Sarıqamışda da, Çanaqqalada da, ... , Bakının eser-daşnaklardan azad edilməsində də, İkinci Qarabağ müharibəsində də, 6 fevral zəlzələ-faciəsində də...

Azərbaycan əsgərinin ilaxır çərşənbədə çatdığı niyyət tonqalı 2020-ci ilin payızında səngərlərdən döyüşlərə, döyüşlərdən qələbələrə aparmış neçə-neçə hekayətin tonqalıdı. Bu hekayətlərin hər biri bir tarixdi. İlaxır çərşənbənin tonqalları bu hekayətlərə ehtiramın tonqalıdı. Üç əsgər dostun hekayəti kimi:

Hərbi xidmətə eyni gündə gəlmişdilər. Üçü də ali təhsilliydi. İlham ədəbiyyat müəllimiydi, Rəhman rejissoruydu, Mikayıl rəssamıydı. İlhama Şair deyirdilər, Rəhmana Bəstəkar, Mikayıla Rəssam. İkinci Qarabağ müharibəsi başladı. Onlar da döyüşənlərin sırasındaydılar.

Füzuliyə hücum olacaqdı. Yanaşı döyüşəcəkdilər. Zaman dayanmışdı elə bil. Dayanmış zaman içində Şairə elə gəlirdi ki, barmağıyla torpağa misralar yazır, Rəssam xəyalında rənglərlə qələbə anını çəkirdi, Bəstəkar qənşərindəki kiçicik dağları royal dilləri kimi dillənddirirdi. Çağıran olmasa nələr yazılardı, nələr çəkilərdi, nələr eşidilərdi?!.

Şair ortada döyüşürdü, Bəstəkar Şairin sağında, Rəssam şairin solunda...

"Şair!" - Rəssamın səsiydi, səsindən hiss elədi ki, yaralanıb. Ona sarı getmək istədi. Bəstəkarın səsini eşitdi. "Şair!". O da yaralanmışdı. O da Şairi köməyə çağırırdı... Beş-üç anın içində bir addım sola atdı, bir addım sağa. Sola dönəndə sağı yanırdı, sağa dönəndə - solu. Ömrünü iki ömür arasında bölməyə gücü çatacaqdımı?..

Sağa baxdı... Sola baxdı... Azca dikələndə ürəyinə güllə dəydi... Şair şəhid oldu, Bəstəkar da, Rəssam da şəhid olmuşdu...

İlaxır çərşənbədə Azərbaycan əsgərinin çatdığı tonqal Şairə, Rəssama, Bəstəkara, Şairin, Rəssamın, Bəstəkarın timsalında bütün şəhidlərə ehtiramın tonqalıdı...

Bir azdan tonqaldan atılanlar "Ağırlığım-uğurluğum burada qalsın!" deyəcəklər...

Azərbaycan əsgəri ilaxır çərşənbədə niyyət tonqalı alışdırıb. Əsgər Elxan Teyyubov belə tonqalların Azərbaycanın hər yerində qalanmasını arzulayıb, əsgər Həsən Atakişiyev Dədə Qorqudun öyüdüycə qalanan tonqalların həm də quruculuq işlərinə çağırış olduğunu xatırladıb, əsgər Tacəddin Əliyev deyib ki, kənddə qaladığımız tonqal belə gur yanmırdı, indi bütün tonqallar Azərbaycanın qüdrətinin tonqalıdı, leytenant Nicat Əsgərov deyib ki, bu tonqal qorunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci ilin martında Şuşada yandırdığı tonqaldan götürüb. Mayor Rəşad Əliyev əsgərlərin fikirlərini gərəkli bir niyyətlə yekunlaşdırıb: İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərində iştirak etməklə orada niyyət tonqalı qalamağa niyyətlilər, tonqalın üstündən atlanın!

Əsgərlər tonqalın göylərə sarılan alov dilimlərini həvəslə aşıblar...

Azərbaycan əsgərinin ilaxır çərşənbədə çatdığı bütün niyyət tonqallarının istisində əsgərlər ruhən Qorqud Dədənin alğışını eşidiblər, gümanındayıq: Yanar ocaqlarınız sönməsin!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə zəlzələ nəticəsində ölənlərin sayı 48,5 min nəfərə yaxınlaşıb



Türkiyədə əsrin fəlakəti adlandırılan zəlzələ nəticəsində həlak olanların sayı 48 min 448 nəfərə çatıb.

Bu barədə məlumat Türkiyənin daxili işlər naziri Süleyman Soylu tərəfindən açıqlanıb.

Onun sözlərinə görə, həyatını itirənlərin 6 min 660 nəfəri xarici ölkə vətəndaşıdır. Təbii fəlakət zonasında dağıntıların təmizlənməsi işləri davam edir.

Qeyd edək ki, fevralın 6-da baş vermiş Kahramanmaraş zəlzələsi Türkiyənin 10 vilayətində böyük dağıntılara səbəb olub. Zəlzələdən sonra regionda 20 mindən çox afterşok qeydə alınıb.

## "Yonhap": KXDR sualtı qayıqdan iki qanadlı raket buraxıb



KXDR sualtı qayıqdan iki qanadlı raket buraxdığını elan edib.

Bu barədə "Yonhap" agentliyi KXDR kütləvi informasiya vasitələrinə istinadla məlumat yayıb.

Məlumata görə, söhbət "strateji qanadlı raketlərdən" gedir. Agentlik Cənubi Koreya Qərargah Rəisləri Komitəsinə istinadla xəbər verib ki, Cənubi Koreya hərbçiləri Sinpxo bölgəsində "naməlum tipli raketin" buraxıldığını müəyyən ediblər.

## Gürcüstan xaricdən xeyli silah alacaq



Gürcüstan ölkənin müdafiə qabiliyyətini artırmaq üçün xarici ölkələrdən xeyli silah alıb. Cari ildə də silah alışı ilə bağlı bir sıra müqavilələr imzalanıb. Bu barədə Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze "İmedi" televiziya kanalına müsahibəsində məlumat verib.

Nazir deyib ki, Gürcüstan ölkənin müdafiə qabiliyyətinin artırılması və silahlanma istiqamətində çox uğurlu addımlar atıb. Cari ildə bununla əlaqədar çox vacib müqavilələr imzalanıb. Artıq silah alınması ilə bağlı İspaniya, Polşa, İsveç şirkətləri ilə müqavilələr imzalanıb. Bu işlər bundan sonra da davam etdiriləcək.

## Pentaqon 2024-cü il üçün silahlanmaya 170 milyard dollar istəyir



ABŞ Müdafiə Nazirliyi 2024-cü maliyyə ilində yeni silahların hazırlanmasına və alınmasına ümumilikdə 300 milyard dolların ayrılması üçün sorğu təqdim edib.

Silah ehtiyatlarının bərpası və artırılması üçün tələb olunan 170 milyard dolların bir hissəsi Ukraynaya tədarük olunan hərbi texnikanın və sursatın yerinin doldurulmasına, həmçinin Çinlə mümkün münaqişə zamanı lazım gələ biləcək raket ehtiyatlarının artırılmasına sərf olunacaq.

Pentaqon, həmçinin elmi-tədqiqatlara və sınaqlara 145 milyard dollar tələb edir.

Ölkənin bu həftə təqdim olunan 2024-cü maliyyə ili üçün büdcə layihəsində müdafiə məqsədlərinə 842 milyard dollar ayrılması nəzərdə tutulub. Bu, 2023-cü ildə olduğundan 26 milyard dollar, yaxud 3,2 faiz çoxdur.

**AZƏRTAC-ın materialları əsasında**

Məişət

# "Hər əsgəri övladımız bilirik"

*Dislokasiya olunduğu ərazidən asılı olmayaraq Azərbaycan əsgərinin rahatlığını təmin etmək üçün hərbi hissələrdə lazımi şərait yaradılıb. Vətən müharibəsindən sonra da işğaldan azad edilən torpaqlarımızda xidmət edən əsgər və zabitlərimizin çətinlik çəkmədən, rahat xidmət etmələrini təmin etmək məqsədilə bu istiqamətdə görülən işlər davam etdirilir. Aparılan təmir, bərpa və yenidənqurma işləri nəticəsində yaradılan bütün hərbi hissələr müasir tələblərə tam cavab verir.*

Hərbi qulluqçularımız növbənöv, dadlı yeməklərin bişirildiyi yeməkxanası, geniş və rahat yataqxanası, isti hamamı olan hərbi hissələrdə xidmət edirlər. Mövcud şəraitin yaxşı olması isə əsgərin uğurlu xidmət etməsi və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılması üçün mühüm amillərdəndir.

"N" hərbi hissəsində Vətən keşiyində dayanan igid oğullarımız üçün yaradılan məişət şəraiti ilə tanış olduq. Hərbi hissənin zabiti Müşfiq Rəhimli bizi müasir avadanlıqlarla təchiz olunan, tam avtomatlaşdırılmış sistemdə fəaliyyət göstərən camaşırxana ilə tanış etdi. Zabit bildirdi ki, məişət şəraitinin yaxşı olması əsgərlərin döyüş əzminə təsir edən amillərdən biridir. Yüksək məişət şəraitinin mövcud olduğu yerdə xidmət edən əsgərlərimizi yalnız bir məsələ düşündürür - hərbin sirlərinə dərindən yiyələnmək, döyüş vərdişlərini möhkəmləndirmək, qarşıya qoyulmuş mühüm tapşırıqları yerinə yetirmək!





Geniş, səliqəli, bir neçə hissədən ibarət olan camaşırxana təmizliyi ilə diqqətimizi çəkdi. Camaşırxana rəisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mərdan Bəkirov bizi qarşılayaraq işin gedişatı barədə geniş məlumat verdi. Bildirdi ki, burada çirkli camaşırların qəbulu, yuyulması, ütülənməsi, təmiz camaşırların saxlanc otaqlarında çeşidlənib saxlanılması və hərbçilərimizə geri qaytarılması prosesləri həyata keçirilir. Xüsusi geyim formasında olan qadın operatorlar əl əməyindən demək olar ki, istifadə etmədən avtomatlaşdırılmış xüsusi avadanlıqlar vasitəsilə öz xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Görülən işlər barədə daha geniş məlumat almaq üçün operatorlarla söhbətləşdik. Seydarə Nəcəfova bildirdi ki, camaşırxana yeni avadanlıqlarla təchiz edilib və tam olaraq müasir standartlara cavab verir. "Burada şəxsi heyətin geyimləri və çirkli yataq dəstləri təyin olunmuş günlərdə bölmələrdən təhvil alınaraq əvvəlcə rənginə, növünə və kirlilik dərəcəsinə görə çeşidlənir. Sonra çeşidlənən eyni rəngli və növlü çirkli camaşırlar maşınlara yüklənib xüsusi antibakterial təmizlik vasitələri ilə tam gigiyenik qaydada yuyulur. Yuyulma təyin olunmuş istilik dərəcəsində müasir aparatlarla həyata keçirilir. Yuyulan camaşırlar daha sonra xüsusi avadanlıqlarla qurudularaq ütülənməsi üçün ütü maşınının operatoruna təhvil verilir. O da öz növbəsində camaşırları yüksək səviyyədə ütüləyərək müvafiq saxlanca göndərir. Gördüyünüz kimi, yeni avadanlıqların köməkliyi ilə əsgərlərimiz təmiz geyimlərlə, yataq dəstləri ilə təmin olunurlar. Bu prosesdə rolumuzun olması bizləri sevindirir. Onların hər biri övladlarımızdır".



Yuyucu maşınların operatoru Şəfəq Salahova dedi ki, müasir avadanlıqlarla təchiz olunan camaşırxanamız gün ərzində yüzlərlə əsgərin geyim formasını yuyub-qurudub, təhvil verməyimizə imkan yaradır. "Hər bir əsgəri öz övladım bilmişəm. Onların təmiz geyimlər geyindiyini görmək məni sevindirir. Vətən müharibəsi zamanı oğlum müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kamil Salahov torpaqlarımızın azadlığı uğrunda gedən şiddətli döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Döyüş meydanında onun qisasını alan, bizə torpaqlarımızın azadlığını bəxş edən igid oğullarımızın davamçılarının qulluğunda durmaqdan qürur duyuram".

Operatorlar Elnurə Dadaşova, Nüşabə Məmmədova, Südabə Hacıyeva, Könül Əhmədova, İlhamə Ağayeva, Zülfiyyə İbrahimova və Afaq Qasımova da gördükləri işdən zövq aldıqlarını, hərbi hissənin gündəlik fəaliyyətinin bir parçası olduqlarına sevindiklərini qeyd etdilər. Maraqlı və məlumatlandırıcı söhbətdən sonra onlara işlərində uğurlar arzulayıb, yolumuza davam etdik. Əsgər camaşırxanasında çalışan xanımların işlərinə məsuliyyətlə yanaşmaları, şəxsi heyətə göstərilən diqqət və qayğı ilə yaxından tanış olaraq, bir daha əmin olduq ki, əsgərlərimizin sosial-məişət şəraiti olduqca yüksək səviyyədədir. Bu da şəxsi heyətin mənəvi-psixoloji hazırlığını və döyüş ruhunu artırmağa köməklik edən başlıca amillərdəndir.



**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Akrobatika gimnastlarımız Portuqaliyada qızıl medal qazanıblar



Azərbaycan təmsilçiləri Portuqaliyanın Maya şəhərində keçirilən akrobatika gimnastikası üzrə dünya kuboku yarışlarında qızıl medal qazanıblar.

Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət cütlük qarışıq hərəkətlər proqramında birinci olub.

Qeyd edək ki, idmançılar ötən il eyni yarışda bürünc medala sahib çıxıblar.

## Azərbaycan paracüdoçusu Misirdə qızıl medal qazanıb



Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) paracüdo üzrə milli komandasının üzvü Namiq Abaslı Misirin İsgəndəriyyə şəhərində keçirilən Qran-Pri turnirində qızıl medal qazanıb.

Turnirdə 73 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz finalda rəqibini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Martın 16-dək davam edəcək turnir "Paris-2024" XVII Yay Paralimpiya Oyunlarına reytinq xalları qazandırır.

Qeyd edək ki, yarışdan əvvəl Beynəlxalq Paralimpiya Komitəsinin qaydalarına uyğun olaraq idmançılar üçün göz tibbi təsnifat keçirilib. Tibbi təsnifatdan uğurla keçmiş idmançılar yarışda iştirak hüququ əldə ediblər.

## Cüdoçularımız Avropa kuboku turnirində komanda hesabında birinci olublar




Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən yeniyetmələr arasında Avropa kuboku turnirində Azərbaycan cüdoçuları 3 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıblar. Azərbaycan yarışda 50 nəfərdən ibarət heyətlə təmsil olunub.

Turnirin ikinci günündə - martın 12-də oğlanların yarışında Süleyman Şükürov (73 kq) finalda polşalı idmançı Şimon Brzuszczynskini məğlub edərək qızıl medal qazanıb. Aslan Kotsoyev (81 kq) final görüşündə Lüksemburq təmsilçisi Miça Veltere qalib gələrək komandamızın aktivinə növbəti qızıl medalı yazdırıb. Ramazan Əhmədov (90 kq-dan yuxarı) turnirin gümüş medalçısı olub.

Turnirin ilk günü Azərbaycan cüdoçuları 1 qızıl və 4 bürünc medal əldə ediblər.

Azərbaycan yığması yarışda medal əyarına görə ümumi hesabda və oğlanlar arasında birinci yeri tutub.

## Kənan İsmayılov Roma Açıq Avropa turnirində bürünc medal qazanıb



İtaliyanın paytaxtı Roma şəhərində keçirilən cüdo üzrə Açıq Avropa turnirinin ilk yarış günündə 3 çəki dərəcəsində 6 cüdoçumuz tatamiyə çıxıb.

Cüdoçumuz Kənan İsmayılov (-60 kq) yarışı 3-cü yerdə başa vurub. O, bürünc medal uğrunda görüşdə niderlandlı idmançı Emiel Carinqə qalib gəlib.

Digər bir cüdoçumuz İbrahim Əliyev (-73 kq) isə yarışı 7-ci yerdə tamamlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Hüsniyyə İDRİSOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təkdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 152
Nüsxə 4725